**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Tarix fakültəsi**
**Tələbə Elmi Cəmiyyətinin**
**Elmi Hesabatı**
**2022**

## 1. Ümumi məlumat

Fakültədə tələbələrin düzgün və sistemli elmi fəaliyyətini yüksək səviyyədə təşkil etmək üçün Tələbə Elmi Cəmiyyəti (TEC) yaradılmışdır.

**Fakültə TEC-in fəaliyyətinə daxildir:**

- Tələbələrin elmi fəaliyyətə marağının artırılması ilə bağlı tədbirlər
- Tələbələrin öz istəklərinə uyğun kafedralara istiqamətləndirilməsi, elmi dərnəklərintəşkili
- Elmi seminar və konfransların təşkili, fəal tələbələrin bu konfranslarda iştirakının təmini

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27 iyun 2014-cü il tarixli, 752 saylı əmri ilə təsdiq edilmiş "Tələbə Elmi Cəmiyyəti haqqında nümunəvi Əsasnamə"yə görə fəaliyyət göstərən təşkilat könüllü olaraq, tələbələrin elmi araşdırmalara cəlb edilməsi, tələbələrlə müəllimlər arasında qarşılıqlı elmi əlaqələrin yaradılmasını, elmi-təşkilati tədbirlərin həyata keçirilməsində fakültə rəhbərliyinə köməklik edilməsi qarşıya məqsəd kimi qoymuşdur. Tələbələrin elmi tədqiqat fəaliyyətinə cəlb edilməsi, elmi yaradıcılığın təbliği, tələblərdə elmi metodların öyrənilməsinə stimul yaradılması, tədqiqatçılıq qabiliyyətlərinin artırılması kimi vəzifələrin həlli üçün cari tədris ilində fakültə TEC-in işi daha da gücləndirilmişdir. Elmi işə marağı olan tələbələr öz arzularına uyğun kafedralara təhkim olunmuşlar. Vaxtaşırı onların seminarlarda və elmi konfranslarda məruzələri dinlənilir. Magistrantların beynəlxalq elmi konfranslarda iştirakına köməklik edilir. Hər il savadlı, elmi axtarışlara meyilli tələbələr cəmiyyət sıralarına qəbul olunurlar. Müxtəlif kurs tələbələri öz istəklərinə uyğun elmi-tədqiqat işi aparmaq üçün uyğun

kafedralara yönləndirilirlər. Hazırda cəmiyyətin 100 nəfərdən çox üzvi var, onlardan 30 nəfəri müxtəlif kafedralarda elmi iş aparmaqdadır ki, bu tələbələrin əksəriyyətini I-III kurs tələbələri təşkil edir. Bu da tələbələrin ildən-ilə elmə marağının artmasının əyani göstəricisidir.
TEC mütəmadi olaraq tələbələrin elmi diskussiyaya cəlb edilməsində mühüm rol oynayan elmi seminarlar təşkil edir. Bu seminarlarda tələbələr elmi mövzular ətrafında fikir mübadiləsi aparır, yeni ədəbiyyatlarla, elmi məqalələrlə tanış olurlar.

## 2. Struktur

Fakültə Tələbə Elmi Cəmiyyətinin heyəti:

Rəhbər – t.ü.f.d. Hicran Mahmudova
Sədr –Nurəli Məmmədov
Sədr müavini – Aydan Əlizadə
Sədr müavini – Hilalə Sadıqova

Fakültə Tələbə Elmi Cəmiyyətinin idarə heyəti:
Əfsanə Vəliyeva
Elcan Əhmədov
Əkbər Hadiyev
Elvira Nuri
Güllü Həsənzadə
Nizam Bəkirov
Qismətli Uğur

## 3. 2022-ci ildə keçirilmiş tədbirlər

**28.02.2022**

28 fevral 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə "İlkin düşüncələrin – Miflərin yaranmasının antropoloji əsasları" mövzusunda elmi seminar keçirilib.

Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin rəhbəri, t.ü.f.d. Hicran Mahmudova Tarix elminin şoxşaxəli olması haqda qısa məlumat verərək, antropologiyanın da multidistiplinar fənn olduğunu və ümümdünya tarixinə müasir antropoloji yanaşma ilə mövcud problemlərin daha ətraflı öyrənilməsinin mümkünlüyünü bildirdi. Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini dosent Kəmalə Nəcəfova Tələbə Elmi cəmiyyətinin işinə uğurlar arzulayaraq, tələbələrin elmi istiqamətə cəlb olunmasında cəmiyyət qarşısındakı vəzifələri bir daha xatırlatdı.

Tarix fakültəsi, "Antropologiya" ixtisası, III kurs, 020 A, a/b tələbəsi Qismətli Uğur Əlisafa oğlu "İlkin düşüncələrin – Miflərin yaranmasının antropoloji əsasları" adlı geniş məruzəsi və hazırladığı slayd ilə iştirakçıların diqqət və marağına səbəb olan məsələlərə toxundu.

Tarix fakültəsinin müəllim və tələbə heyəti ilə yanaşı, BDU-nun Juranlistika fakültəsinin, ADU-nun əməkdaşlarından ibarət qonaqların da iştirak etdiyi seminarda məruzəçiyə çoxsaylı suallar ünvanlandı. Seminar diskussiya şəklində, qızğın elmi müzakirələrlə yadda qaldı.

**28.03.2022**

28 mart 2022-ci ildə Tarix fakültəsi Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı “Elm günü”nə həsr olunmuş “Antropologiya elminin aktual mövzuları” adlı elmi seminar keçirilib. Elm gününün təsis olunması ilə bağlı elmi işlər üzrə dekan müavini dos.Kəmalə Nəcəfova məlumat verərərək, gənclərin elmə diqqətinin artırılmasının əhəmiyyətindən bəhs edib. TEC rəhbəri t.ü.f.d. Hicran Mahmudova Azərbaycan elmi ictimaiyyətinin bayramının elmi təbliğat istiqamətindəki rolundan bəhs edərək, sözü tələbələrə verdi. İslamov Toğrul “Azərbaycanda şamanizmin izləri”, Babazadə Nənəxanım “Müasir dövrdə gender problemi”, Məmmədli Elton “Canlılar aləminin təkamülü”, Musayeva Aygün “Paleolit dövründən günümüzə qədər qidalanma”, İsmayılov Nuralı “Albaniya əhalisinin etnik tərkibi” mövzularında çıxışlar ediblər. Hər bir çıxış maraqla qarşılanmış, müəllim və tələbələrin sualları cavablandırılmışdır.

Sonda dos. K.Nəcəfova mövzulara elmi baxımdan hərtərəfli yanaşdıqları üçün tələbələrə minnətdarlığını bildirərək, gələcəkdə də tarixin müxtəlif sahələri, dövrləri ilə bağlı aktual məsələlərə diqqət yetirmələrini tövsiyyə etdi.

**04.04.2022**

04 aprel 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə 2016-cı ilin Aprel döyüşlərinə həsr olunmuş “Mart soyqırımından aprel qələbəsinə” mövzusunda elmi seminar keçirilib.

Elmi seminar Azərbaycan Respublikasının Dövlət Himninin səsləndiriliməsi və şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla aılması ilə başlandı.

Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin rəhbəri, t.ü.f.d. Hicran Mahmudova Azərbaycan tarixində Aprel döyüşlərinin əhəmiyyətindən bəhs edərək, məhz mart soyqırımının ardınca zəfərə aparan Aprel qələbəsinin gənclərimizin milli vətənpərvərlik ruhunun yüksəlməsində mühüm rol oynadığını bildirdi.

“Aprel döyüşlərindən qələbəyə aparan yol” adlı məruzə ilə çıxış edən keçmiş hərbçi, Tarix fakültəsinin məzunu Səxavət Ağayev döyüşlərin gedişi, hərbçi yoldaşlarının qəhrəmanlıq salnaməsindən bəhs etdi. Tarixinçi tələb üçün bu möhtəşəm günlərin canlı şahidi olmağın məsuliyyətinin ikiqat olduğunu qeud etdi. Fakültənin III kurs tələbəsi Fəridə Məmmədova “Aprel döyüşlərinin gedişatı, əhəmiyyəti və nəticələri” mövzusunda çıxış edərək, bu döyüşlərin əvvəlki və sonrakı döyüçlərlə müqayisəsini apararaq, onun Azərbaycan tarixindəki rolunu slaydla əyani şəkildə təqdim etdi. Fakültənin IV kurs tələbəsi Aydan Cümşüdlü “Azərbaycan tarixində Aprel Şəhidlərinin əbədiliiyi” mövzusunda məruzəsində şəhidlərin ömür və döyüş yolundan bəhs edən videoçarxla onların misalında vətənpərvərlik ideyalarının daim yaşayacağını və müasir tariximizdə - ali və orta təhsil müəssisələrində tarix fənninin tədrisində gələcək nəsillərə daim nümunə kimi təqdim olunmalarının vacibliyini vurğuladı. TEC sədri Ağamirzə Məmmədov “Aprel döyüşləri və qələbə tariximiz” adlı məruzəsində Aprel döyüşlərinin mahiyyətindən və bu döyüşlərin Vətən müharibəsindəki qələbəyə böyük bir yol saldığından bəhs etdi, minilliklər ərzində formalaşmış hərb sənətimizin tarixinə elmi yanaşma ilə məruzəsini yekunlaşdırdı.

Sonda Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini dosent Kəmalə Nəcəfova çıxış edərək, vaxtilə mart ayında Bakıda başlanan soyqırımın apreldə Azərbaycanın digər bölgələrində də davam etdirildiyini və müzəffər Azərbaycan ordusunun 2016-cı ilin aprel ayında sanki həmin hadisələrin qisasının alındığını vurğuladı. Aprel qələbəsinin isə böyük, möhtəşəm Zəfərə aparan rolunun əvəzsiz olduğunu, tələbələrin mövzuya elmi cəhətdən yanaşmalarının təqdirəlayiq olduğunu bildirdi. Iki saat davam edən elmi seminar maraqlı müzakirələrlə yadda qaldı.

**06.05.2022**

06 may 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə “**Azərbaycanın dövlətçilik simvolları və Heydər Əliyev irsində ənənənələr və varislik”** mövzusunda elmi seminar keçirilib.

İştirakçıları salamlayan Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova bildirdi ki, Ümummilli lider Heydər Əliyev irsinin elmi cəhətdən öyrənilməsi, milli müstəqil dövlətçilik tariximizin mühüm mərhələsinə gənc tədqiqatçıların diqqət yetirməsi vacib və aktual hesab olunur. Odur ki, tələbələrin bu mövzuya özünəməxsus yanaşmasını, yeni, müasir gənclikdə tarixi hadisələri düzgün analiz etmək qabiliyyətinin formalaşmasını izləyə bilmək üçün belə mövzulu elmi seminarların təşkil olunması da günümüzün aktuallığıdır..

Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin rəhbəri, t.ü.f.d. Hicran Mahmudovanın moderatorluğu ilə keçən elmi seminarda Azərbaycan himni ifa olunduqdan sonra, “Azərbaycanın dövlətçilik simvolları və Heydər Əliyev irsində ənənənələr və varislik” mövzusunu əhatə edən 7 məruzə dinlənildi.

Bakı Dövlət Universiteti, Tarix fakültəsinin TEC sədri, II kurs tələbəsi Nurəli Məmmədov “Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın qurucusudur”, Azərbaycan tarixi (humanitar fənlər üzrə) kafrdrasının I kurs magistrantı Sarışan Adışova “Dahi lider gənclərin gözü ilə: Heydər Əliyev və Azərbaycanda qadın siyasəti”, II kurs tələbəsi Güllü Həsənzadə “Azərbaycan tarix elminin inkişafında Heydər Əliyevin xidmətləri”, II kurs tələbəsi Əfsanə Vəliyeva “Azərbaycan manatı: Heydər Əliyev dövründən başlanan iqtisadi siyasətin sabitliyi”, II kurs tələbəsi Elvira Nuru “Müstəqil Azərbaycanın beynəlxalq əlaqələrinin formalaşmasında Heydər Əliyevin xidmətləri: ənənə və varislik”, III kurs tələbəsi Gülər İbişova “Heydər əliyev və Azərbaycan bayrağının milli suverenliyin simvolu kimi tanınması”, III kurs tələbəsi Aydan Əlizadə “Azərbaycanın dövlət himni və tarixi qələbələrimiz: ənənənələr” mövzusunda məruzə etdilər. Məruzələrin sonunda Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx TEC üzvlərini tərəfindən təqdim olundu.

50 nəfərə yaxın iştirakçı ilə iki saatdan davam edən elmi seminar maraqlı müzakirələrlə yadda qaldı. Sonda çıxış edən məruzəçilərə Sertifikatlar verildi və xatirə şəkilləri çəkildi.

**27.05.2022**

27 may 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 illiyi ilə bağlı “İSTİQLAL EŞQİLƏ” adlı elmi seminar keçirilib. Fakültə müəllim və tələbələrinin iştirakı ilə keçirilən elmi seminarı Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova açaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 illiyi ilə bağlı tələbələrə məlumat verdi. Tarix fakültəsinin Tələbə Elmi Cəmiyyətinin rəhbəri, t.ü.f.d. Hicran Mahmudovanın moderatorluğu ilə keçən elmi seminarda “İSTİQLAL EŞQİLƏ” mövzusunu əhatə edən 4 məruzə dinlənildi.

Bakı Dövlət Universiteti, Tarix fakültəsinin II kurs tələbəsi Elvira Nuri “Fətətli xan Xoyski fəaliyyəti AXC dövründə”, II kurs tələbəsi Əfsanə Vəliyeva “Azərbaycanın İstiqlal Bəyannaməsi”, I kurs tələbəsi Həlilə Sadıqova “AXC dönəmində Parlament”, III kurs tələbəsi Aydan Əlizadə “AXC dövründə Milli mətbuat” mövzusunda məruzə etdilər. Məruzələrin sonunda mövzularla bağlı diskussiya apararıldı.

**30.09.2022**

30 sentyabr 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə “Elmi məqalələrin yazılması” ilə bağlı təlim keçirilmişdir. Faklültənin I kurslarından olan, elmi cəmiyyətin yeni üzvlərin də qatıldığı təlimdə t.f.d.

Hicran Mahmudova elmi məqalələrin yazılması ilə bağlı əsas tələb və qaydaları izah etdi. Məqalələr üçün açar sözlərin, qısa xülasələrin yazılması ilə bağlı tələbələrin sualları cavablandırıldı. H.Mahmudova elmi məqalənin aktuallığı, müəyyən plan üzrə yazılması, giriş, əsas araşdırma və nəticə kimi hissələrin yazılmasında diqqət yetirilməli məqamları tələbələrin diqqətinə çatdırdı. Məqalələrin yazılmasında mənbə və ədəbiyyatlardan istifadə, istinad qaydaları ilə bağlı əyani misallar göstərdi. Elmi konfranslar üçün tezis və məqalələrin yazılması, fərqli jurnalların tələblərinə uyöun elmi məqlələrin tərtib qaydaları da bir neçə nümunə əsasında tələbələrə izah olundu. Təlim ümumilikdə tələbələrin marağına səbəb oldu və maraqlı diskussiyalarla yadda qaldı.

**14.10.2022**

14 oktyabr 2022-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə Müstəqilliyin bərpası gününə əsr olunmuş “Azərbaycanın dövlətçilik tarixi və numizmatik nümunələr” adlı elmi seminarın keçirildi. Seminarı TEC rəhbəri Hicran Mahmudova açaraq, Azərbaycanın qədim dövlətçilik ənənsinin tarixindən bəhs etdi. Fakültənin əməkdaşı, dosent Qanira Pirquliyeva “Azərbaycan sikkələri”nin yaranması, quruluşu, tarixən mövcud olmuş pul nümunələri ilə bağlı geniş məlumat verdi. TEC üzvlərindən III kurs tələbəsi Nurəli Məmmədov, IV kurs tələbələri Uğur Qismətli, Turqay Binnətov, I kurs tələbəsi Nurtən Əzimova antik və orta əsrlər dövründə əsas yer tutmuş pul nümunələri, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində dövriyyədə olan pulların dövlətçiliyimizn göstəricisi kimi əhəmiyyətindən bəhs üdən məruzələrlə çıxış etdilər. Məruzələrin sonunda geniş fikir mübadiləsi aparıldı.

**16.11.2022**

16 noyabr 2022-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı “Azərbaycanın müasir tarixində “Qarabağ zəfəri” mövzusu və onun elmi – tarixi əhəmiyyəti” mövzusunda elmi seminarın keçirildi. Elmi işlər üzrə dekan müavini dosent Kəmalə Nəcəfova Azərbaycan tarixində “Qarabağ zəfəri”nin yeri, möhtəşəm qələbəyə gedən tarixi yol, müasir dövrdə aparılmış məqsədyönlü islahatlar və onların nəticəsinin əhəmiyyəti haqda geniş məlumat verdi. TEC üzvləri “Azərbaycan tarixşünaslığında tarixi qələbələr”, “Qarabağ tarixinə dair mənbələr”, “Qarabağ əhalisinin etnodemoqrafiyası”, “Kürəkçay müqaviləsi və Qarabağ tarixi”, “Dəmir yumruq”əməliyyatı və hərb tariximiz”, “Şuşa bəyannaməsi”nin tarixi əhəmiyyəti” mövzusunda məruzələr etdilər. Elmi seminar yüksək əhval-ruhiyyədə və maraqlı fikir mübadiləsi ilə keçdi. Tələbələr bu möhtəşəm Zəfərin tarix şahidləri olduğları üçün fəxr etdiklərini xüsusilə vurğuladılar.

**07.12.2022**

07 dekabr 2022-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı “Şuşa ili-2022” ilə bağlı “Qarabağın mədəni irsi” mövzusunda elmi seminar keçirildi. TEC rəhbəri Hicran Mahmudova Şuşa ilinin elan olunmasının tarixi əhəmiyyəti, gənclərin Qarabağ tarixininə diqqətinin artırılması üçün dövlət səviyyəsində görülən işlərdən, tarixçi tələbələrin bu sahədə öhdəsinə düşən vəzifələrdən bəhs etdi. TEC sədri Nurəli Məmmədov Şuşa şəhərinin tarixi ilə bağlı ətraflı məlumat verdi. III kurs tələbəsi Mərziyyə Xudiyeva “Qarabağın ənənəvi xalq musiqisi”, I kurs tələbəsi Nurtən Əzimova “Qarabağda xalq geyimləri”, IV kurs tələbəsi Aydan Əzimova “Şuşa ili - sevinc və qürur ilimiz” mövzusunda maraqlı elmi çıxışlar etdilər.

Məruzələr maraqla qarşılandı. Xalq musiqisi ilə bağlı suallara M.Xudiyeva ətraflı cavablar verdi, N.Əzimova etnoqrafik materiallar əsasında Qarabağın xalq geyimlərinin slayd formasında təqdimatını göstərməklə çıxışını canlı edə bildi. A.Əzimova Şuşa zəfərinə gedən yoldan, hərbi uğurlarımızdan, Tarix fakültəsinin şəhid və qazi tələbələrindən bəhs edən çıxışı ilə iştirakçıların diqqətini cəlb edə bildi. Elmi seminar diskussiya ilə yekunlaşdı

**20.12.2022**

20 dekabr 2022-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Tələbə Elmi cəmiyyətinin təşkilatçılığı ilə "Azərbaycan Xalq Cumhuriyyəti parlamenti" mövzusunda elmi seminar keçirildi. Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini dosent Kəmalə Nəcəfova Xalq Cumhuriyyətinin yaradılmasının və fəaliyyətinin tarixindən, Cumhuriyyət qurucularından bəhs edən açılış nitqi etdi. TEC rəhbəri Hicran Mahmudova AXC parlamentinin iclasları ilə bağlı məruzə etdi. Tələbələrdən III kurs tələbəsi Fuad Xəlilov "Azərbaycan Xalq Cumhuriyyəti parlamenti"nin tariximizdə oynadığı önəmli rol" adlı məruzəsində Cumhuriyyət fədailərinin o dövr üçün çətin şəraitdəki fəaliyyətini şərh etdi. III kurs tələbəsi Fuad Qaffarov "Azərbaycan qadınının Cumhuriyyət dönəmondə ictimai və sosial həyatdakı fəaliyyəti" adlı məruzəsində tarixi mənbələr əsasən XX əsrin əvvəllərində qadınların fədakar fəaliyyətindən bəhs etdi. Anar Can Kıtay "Azərbaycan Xalq Cumhuriyyətinin adlandırılmasının türk-islam dünyasına təsirləri", IV kurs tələbəsi Aydan Əlizadə ""21 Azər hərəkatı – S.C.Pişəvərinin Milli hökümətinin Təbrizdəki fəaliyyəti" mövzusundakı məruzəsində AXC və Milli hökümətin fəaliyyətinin müqayisəli təhlilini apardı. Tec üzvləri bütün çıxışlarla bağlı məruzəçilərə suallar verdilər, elmi fikir mübadiləsi, çıxışlara olan maraq xüsusilə qənaətbəxş oldu.